**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazma hüququnda*

**QAŞQAY ZİYƏDDİN oğlu RAMAZANOV**

# “SİLAHLI MÜNAQİŞƏ ZONALARINDA JURNALİST FƏALİYYƏTİNİN NƏZƏRİ VƏ PRAKTİK ASPEKTLƏRİ (AZƏRBAYCAN, RUSİYA VƏ TÜRKİYƏ MƏTBUATININ MATERİALLARI ƏSASINDA, 1991-2011-ci İLLƏR)”

**5720.01 – Jurnalistika**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**Bakı – 2018**

**Dissertasiya işi Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbərlər:** **Ağalar Nəriman oğlu ABBASBƏYLİ**
tarix üzrə elmlər doktoru, professor

**Həmid Alı oğlu VƏLİYEV**
filologiya üzrə fəlsəfə doktoru, professor

**Rəsmi opponentlər:** **Qulu Məmmədqulu oğlu MƏHƏRRƏMLİ**
filologiya üzrə elmlər doktoru, professor

**Vüqar Gəncəli oğlu RƏHİMZADƏ**
siyasi elmlər üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universitetinin Jurnalistika kafedrası**

Müdafiə «____» ____________ 2018-ci il tarixdə saat «____$^{00}$» da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 6 aprel 2018-ci il tarixli 87 №-li əmri ilə 5720.01 – «Jurnalistika» ixtisasında siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilməsi üçün Bakı Dövlət Universiteti nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:**AZ1148, Bakı şəhəri, Z.Xəlilov küç., 23, I tədris korpusu, 412-ci auditoriya

Dissertasiya ilə BDU-nun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____» ____________ 2018-ci il tarixdə göndərilmişdir.

**Birdəfəlik Dissertasiya Şurasının elmi katibi,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent:** **P.Y. İbrahimova**

## Tədqiqat işinin ümumi səciyyəsi

**Mövzunun aktuallığı.** Çoxsaylı silahlı münaqişə və müharibələrin baş verdiyi XX əsrdə münaqişə jurnalistikası (müharibə jurnalistikası) fəaliyyət və əhatə dairəsi baxımından genişlənməyə başlamışdır. XX əsrin sonu və XXI əsrin əvvəllərində dünyanın bir çox bölgələrində, postsosialist məkanda, o cümlədən Azərbaycan (Dağlıq Qarabağ və ətraf ərazilərin işğalı), Gürcüstan, Moldova, Rusiya və keçmiş Yuqoslaviyada kütləvi insan tələfatı ilə müşayiət olunan irimiqyaslı silahlı qarşıdurma, müharibə və münaqişələr yerli, həmçinin beynəlxalq KİV-in əsas mövzusuna çevrilmişdir.

Münaqişə jurnalistikasının yaranma tarixi isə 1853–1856-cı illərdəki Krım müharibəsindən hesablanır. Müharibə jurnalistikası təhlükəli peşə məşğuliyyətidir. Beynəlxalq jurnalist təşkilatlarının statistikasına görə, hər il dünyada peşə borcunu yerinə yetirərkən təxminən 100 jurnalist həlak olur, yüzlərlə jurnalist isə müxtəlif növ zorakılıqlara məruz qalır. Jurnalistlərin fəaliyyətinə görə zorakılığa məruz qalmasına, müharibədə həlak olmasına baxmayaraq, öz peşəsindən əl çəkməməsini, onun əməyini qiymətləndirmək də aktual məsələlərdəndir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev münaqişə zonalarında çalışan jurnalistlərin əməyini xüsusi qiymətləndirmişdir: "...Jurnalistlərin əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir. İnsanın daxilində bu peşəyə xüsusi bir meyil, ehtiras olmasa, o jurnalist peşəsinin öhdəsindən gələ bilməz. Siz dünya təcrübəsindən bilirsiniz ki, Yer kürəsinin qaynar nöqtələrində olan jurnalistlər bəzən necə həlak olurlar. Jurnalistlər bizdə, Azərbaycanda da həlak olmuşlar. Cəbhə zolağında, Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzlə bağlı döyüş əməliyyatları gedən zaman bizim neçə-neçə istedadlı jurnalistimiz həlak olmuşdur… Onlar dünyanın başqa ölkələrində də həlak olurlar. Bəli, həlak olurlar, amma bununla belə, əsl jurnalistlər öz jurnalist peşəsindən imtina etmirlər. Buna görə də jurnalist peşəsi hünər tələb edən peşədir"[1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də jurnalistlərin əməyini həmişə yüksək qiymətləndirmiş, hətta dünyada analoqu olmayan bir işə imza atmış, dövlət hesabına inşa edilən xüsusi binalarda jurnalistlərə, o cümlədən münaqişə jurnalistikası sahəsində xeyli əmək sərf etmiş jurnalistlərə mənzillər verilməsini təmin etmiş və bu xeyirxah işi davam etdirəcəyinə söz vermişdir: "Dövlət öz tərəfindən jurnalistlərin fəaliyyətinə dəstəyini

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Altıncı kitab: mart 1996 – iyun 1996. Bakı: Azərnəşr, 1998, 512 s.

əsirgəməyəcək... Azərbaycanda azad jurnalistikanın rolu çox böyükdür. Ölkəmizdə demokratik cəmiyyətin formalaşmasında jurnalistikanın çox böyük rolu vardır və bu rolu mən yüksək qiymətləndirirəm. Əminəm ki, gələcəkdə də Azərbaycanda söz azadlığı və bütün başqa azadlıqlar təmin ediləcəkdir"[1].

Prezident jurnalistləri məsuliyyətli olmağa çağırmaqla yanaşı, həmişə onların hüquqlarının qorunmasının vacibliyini dilə gətirmişdir: "Jurnalistlər çox məsuliyyətli olmalıdırlar. Burada qərəzsiz mövqe çox vacibdir. Mən media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında müstəqil medianın gücləndirilməsində görürəm... Jurnalistlərin hüquqları tam şəkildə qorunmalıdır, müdafiə olunmalıdır. Jurnalistlərə qarşı hörmətsizlik, zorakılıq edilməməlidir"[2].

Azərbaycanda jurnalistlərə bu qədər yüksək qayğı və diqqət öz yerində, tədqiqat işinin mövzusunu təşkil edən silahlı münaqişə zonalarında jurnalist fəaliyyətinin aktual problemləri nəinki ölkəmizdə, eyni zamanda beynəlxalq müstəvidə də kifayət qədər tədqiq olunmamışdır. Jurnalistlərin çalışmaları üçün münasib şəraitin yaradılması, ən əsası isə onların silahlı münaqişə zonalarında hüquqi müdafiəsinin təşkili problemlərinin elmi səviyyədə araşdırılmaması, ölkəmizin də müharibə vəziyyətində olması bu sahədə kompleks tədqiqat işlərinin aparılmasına olan ehtiyacı şərtləndirir.

Tədqiq etdiyimiz mövzu ilə bağlı xarici ölkələrdə keçirilmiş elmi toplantılarda, yığıncaqlarda, bəzi kitablarda və məqalələrdə bu sahədəki vəziyyətə toxunulsa da, problemlərin həlli üçün konkret təkliflər ortaya qoyulmamış, Azərbaycanda isə ümumilikdə bu sahə elmi tədqiqatın obyekti olmamışdır. Məhz bu cəhət tədqiqatın məqsədini müəyyən etmiş, mövzunun işlənmə zərurətini aktuallaşdırmışdır.

**Problemin elmi araşdırılma səviyyəsi.** Münaqişə zonalarında jurnalist fəaliyyətinin bir çox cəhətdən tədqiq edilməsi Azərbaycan mətbuatı üçün yeni, eyni zamanda ciddi problem kimi özünü büruzə verməyə başlamışdır.

Bəzi tədqiqatçıların araşdırmalarında jurnalistlərin döyüş bölgələrində fəaliyyətini tənzimləyən beynəlxalq humanitar hüququn yaranması və inkişafı, BHH-nin tarixi, mahiyyəti, onun insan hüquqları sahəsində oynadığı rolla bağlı zəngin, dəyərli elmi tədqiqat materialları yer almışdır[3]. Bəzi araşdırmaçılar BBH-nin tətbiqi yönündə ciddi tədqiqat metodlarının tədqiqinə da-

[1] http://www.files.preslib.az/site/ialiyev/2013.pdf "Xalq qəzeti", 2013, 23 iyul.№ 159, s.1-3.
[2] Əliyev İ. H. Mən jurnalistləri vətənpərvərliyə çağırıram. Bakı: Apostrof, 2010, 271 s.
[3] Пикте Ж. С. Становление международного гуманитарного права // Междунар. журн. Красного Креста. 1994, № 1, с. 13–20; Пикте Ж. С. Международный Комитет Красного Креста: уникальное учреждение. М.: МККК, 1997, 112 с; Пикте Ж. С. Развитие и принципы международного гуманитарного парава. ВТИ. М.: МККК, 1994, 128 с.

ha çox üstünlük verirlər[1]. Mövzunun əsasını təşkil edən silahlı münaqişə zonalarında jurnalist fəaliyyətinin nəzəri və təcrübi aspektlərinə gəlincə, əldə edilən qənaət odur ki, ölkəmizdə bu sahədə elmi araşdırmalar, fundamental tədqiqat işi aparılmamışdır. Bu sahədə əsas mənbə kimi Ə.Mehdiyev başda olmaqla müəlliflər kollektivinin iştirakı ilə "Dinc dünya" Araşdırmalar Mərkəzinin hazırladığı "Ekstremal jurnalistika" kitabını[2] göstərmək olar. Lakin bu qəbildən olan ədəbiyyat nümunələrində də bütün müsbət cəhətlərlə yanaşı, silahlı münaqişə zonalarında jurnalist fəaliyyətinin nəzəri və praktik prinsiplərə əsaslanan sosial və hüquqi cəhətləri deyil, "ekstremal jurnalistika"nın ümumi problemləri təhlil edilmiş, tədbirlərdə çıxış edən mütəxəssislərin fikirləri məqalə şəklində verilmiş və beynəlxalq təşkilatların təcrübəsindən əldə edilən müəyyən situasiyalar təsvir edilmişdir.

I Qarabağ müharibəsinin işıqlandırılmasında iştirak etmiş jurnalistlərimizin təəssürat və təcrübələrinin də yer aldığı 2002-ci ildə Moskvada rus dilində çap olunmuş "Jurnalistlər Qarabağ müharibəsində" kitabını[3] tədqiq olunan problematika ilə bağlı müəyyən elmi-nəzəri əhəmiyyətə malik mənbə hesab etmək olar. Kitabda, subyektiv cəhətlərinə baxmayaraq, erməni jurnalistlərin, həm qarşı tərəfdə, həm də cəbhənin Azərbaycan tərəfində münaqişəni işıqlandırmağa çalışan Rusiya jurnalistlərinin Qarabağ müharibəsində fəaliyyətlərinin bir sıra səciyyəvi aspektlərinə geniş yer verilmişdir.

Müharibə jurnalistikasının problemlərinin ətraflı və peşəkarcasına qələmə alınması, praktik nümunələrlə müqayisəli şəkildə təhlil olunması baxımından münaqişə zonalarında geniş təcrübəyə malik türkiyəli jurnalist M. Çubuqçunun "Atəş altında jurnalist fəaliyyəti: müharibə və müharibə jurnalistikası"[4], rusiyalı mütəxəssis A.Knyazevin "Münaqişə jurnalistikası"[5] kitablarını bu sahədə müəyyən mənada uğurlu tədqiqat əsərləri hesab etmək olar. M. Çubuqçu kitabında, Azərbaycanın Dağlıq Qarabağ regionu da daxil olmaqla, jurnalistlərin müharibədə qarşılaşdıqları çətinliklərdən bəhs etmiş, fəaliyyət növlərinin təhlilinə geniş yer vermişdir. Dissertasiyada türkiyəli jurnalist-tədqiqatçı Əli Koçakın elmi-nəzəri əhəmiyyət kəsb edən tədqiqat

---

[1] Gasser H.-P. Beynəlxalq humanitar hüquq: giriş. Bakı: BQXK, 2007, 118 s.; Hüseynov L.H. Beynəlxalq hüquq: dərslik. Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, 2002, 420 s.; Zaybt H. Beynəlxalq humanitar hüquq üzrə çalışmalar toplusu. Bakı: BQXK, 2008, 162 s.

[2] Ekstremal jurnalistika. "Dinc dünya" Araşdırma Mərkəzi / Ə.P. Mehdiyevin redaktəsi ilə. Bakı: Şərq-Qərb ASC, 2003, 232 s.

[3] Журналисты на войне в Карабахе. М.: Права человека, 2002, 184 с.

[4] Çubukçu, Mete, Yıkılsın Bu Düzen: Arap Ayaklanmaları ve Sonrası. İstanbul, İletişim Yayınları, 2012, 216 s.

[5] Князев А. Журналистика конфликта. Пособие (чистичное изложение). Бишкек: 2001, 416 с.

işlərindən[1] də istifadə edilmişdir.

Problemin müasir jurnalistikanın tələbləri baxımından və elmi tədqiqat nöqteyi-nəzərindən araşdırılması, toplanmış əsas materialların səbəb-nəticə əlaqəli təhlil edilməsi məqsədi ilə tədqiqat işində R.Ə. Mehdiyev, Ə.M. Həsənov, A.N.Abbasbəyli, L.H. Hüseynov, H.İ. Quliyev, H.A.Vəliyev, N.A.Əhmədli, Ş.Ə.Nəzirli, Q.M.Məhərrəmli, İ.A.Mazanlı, H.B.Məmmədov, S.R.Məmmədli, M.S.Süleymanov, C.Ə.Məmmədli, M. Çubuqçu, Ə.Koçak, J. S. Pikte, H.-P. Gasser və başqalarının əsərlərindən istifadə edilmişdir[2]. Bununla yanaşı, beynəlxalq humanitar hüququn mənbələri olan Ce-

---

[1] Koçak, Ali, Savaşta Gazetecilik/Yaşamak. Ankara, Gün yayıncılık LTD, 2000, 118 s.; Koçak, Ali, "Türkiye'de Savaş Muhabirlerinin Çalşma ortamları" / Yüksek Lisans Tezi. Ankara, 2006, 132 s.

[2] Mehdiyev R.Ə. İkili standartların dünya nizamı və müasir Azərbaycan. Bakı: Şərq-Qərb, 2015, 224 s.; Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan Nəşriyyatı, 2005, 752 s.; Abbasbəyli A.N. Beynəlxalq münaqişələr: nəzəri və konseptual yanaşmalar. Bakı: Şirvannəşr, 2006, 194 s.; Abbasbəyli A.N., Ramazanov Q.Z. Müharibə jurnalistikasında obyektivliyin qorunması və psixoloji təsir məsələləri // Hərbi bilik, 2016, № 2 (140), s.94-102; Abbasbəyli A.N., Ramazanov Q. Z. I Qarabağ müharibəsində erməni işğalçılarının cinayətləri və hərbi işğal rejiminin mahiyyəti // Milli təhlükəsizlik və hərbi elmlər, № 2 (1), Bakı: Hərbi Nəşriyyat, 2016, s-85-92; Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə. G. Konfliktologiya: dərslik. Bakı: BDU nəşriyyatı, 2006, 292 s.; Abbasbəyli A.N., Nəcəfov E.Ə. Beynəlxalq münasibətlər nəzəriyyəsi: dərslik. Bakı: Mütərcim, 2007, 212 s.; Abbasbəyli A.N., Yusifzadə S.Z. Beynəlxalq münasibətlər tarixi: dərslik. Bakı: BDU nəşriyyatı, 2009, 309 s.; Hüseynov L.H. Beynəlxalq hüquq: dərslik. Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, 2002, 420 s.; Quliyev H.İ. Cəbhə qəzetləri: 1941–1945. Bakı: Azərnəşr, 1965, 140 s.; Vəliyev H. A. Beynəlxalq jurnalist təşkilatları. Bakı: UniPrint NPM, 2005, 84 s.; Vəliyev H. A. Xarici ölkələrin jurnalistikası tarixi. Bakı: Tuna, 2012, 640 s.; Məhərrəmli Q.M. Jurnalistikanın əsasları: dərslik. Bakı: Qanun, 2012, 436 s.; Vəliyev H. A. Dünya informasiya agentlikləri: dərs vəsaiti. Bakı: BDU nəşriyyatı, 2013, 64 s.; Əhmədli N.A. Kütləvi informasiya vasitələri xaricə siyasi təbliğat sistemində. Bakı: BDU nəşriyyatı, 2004, 76 s.; Nəzirli Ş. Ə. General Əliağa Şıxlinski ömrü. Bakı: Uğur, 2005, 248 s.; Mazanlı İ.A. Jurnalistika və beynəlxalq humanitar hüquq kursunun proqramı. Bakı: BDU nəşriyyatı, 2011, 14 s.; Mazanlı İ.A. Jurnalistika və müasir dövrün problemləri. Bakı: BDU nəşriyyatı, 2013, 416 s.; Mazanlı İ.A. KİV:millətlərarası və dövlətlərarası münasibətlərin təkmilləşdirilməsi faktoru kimi. Bakı: Renessans. 2014, 624 s.; Mazanlı İ.A. Söz azadlığı və informasiya təhlükəsizliyi: milli və beynəlxalq təminat. Terminlər. Bakı: UniPrint, 2005, 160 s.; Məmmədli S.R. Beynəlxalq jurnalistika dünya media sistemində: dərs vəsaiti. Bakı: BDU nəşriyyatı, 2013, 144 s.; Məmmədov H.B. Dünya siyasəti və beynəlxalq münasibətlər: dərslik. Bakı: Çinar-Çap, 2010, 564 s.; Məmmədov H.B. İnfoimperializm və media. Bakı: MSA, 2013, 192 s.; Süleymanov M.S. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi Nəşriyyat, 2008, 398 s.; Süleymanov M.S. Azərbaycanın hərb tarixi: sovet dövrü: 1923-1990. 2 cilddə, I c. Tehran: Firuzan, 2011, 734 s. ; Süleymanov M.S. Azərbaycanın hərb tarixi: sovet dövrü: 1920-1922. 2 cilddə, II c. Tehran: Firuzan, 2011, 599 s.; Məmmədli C.Ə. Jurnalistikanın müasir inkişaf meyilləri. Bakı: Elm, 2012, 465 s.; Məmmədli C.Ə. Müasir jurnalistika. Bakı: BDU nəşriyyatı, 2003, 436 s.; Çubukçu, Mete, Ateş Altında Gazetecilik: Savaş ve Savaş Haberciliği. İstanbul, Metis Yayınları, 2005, 280

nevrə və Haaqa Konvensiyalarına, onlara Əlavə Protokollara, BQXK-nın sənədlərinə də müraciət edilmişdir.

Avropa Şurasının Nazirlər Komitəsi 3 may 1996-cı il tarixli 98-ci iclasında münaqişə və gərginlik şəraitində jurnalistlərin müdafiəsi haqqında xüsusi Bəyannamə, 28 aprel 2005-ci il tarixdə Avropa Şurasının Parlament Assambleyası xüsusi Qətnamə qəbul etsə də, münaqişə zonalarında jurnalist fəaliyyətinin aktual problemləri dəfələrlə qabardılsa da, beynəlxalq səviyyədə jurnalistlərin qorunması məsələsi ilə bağlı ciddi tədbir görülməmişdir.

Mövcud elmi ədəbiyyatın təhlili göstərir ki, münaqişə zonasında jurnalist fəaliyyətinin tənzimlənməsi üzrə qayda və prinsiplər, onun tarixi, hüquqi cəhətləri beynəlxalq səviyyədə kompleks şəkildə araşdırılmamış, Azərbaycanda isə bu problem indiyədək elmi səviyyədə tədqiqat obyekti olmamışdır.

**Tədqiqatın elmi yeniliyi.** Problemin aktuallığı qarşıya qoyulmuş məqsəd və vəzifələrlə əlaqədar şəkildə müəyyənləşdirilir. Silahlı münaqişə zonalarında jurnalistlərin fəaliyyətinin problemləri, bu sahədə peşəkarlığın mühüm aspektləri ölkəmizdə, demək olar ki, tədqiq olunmamış, beynəlxalq müstəvidə bir çox cəhətdən araşdırılsa da, müqayisəli deyil, tarixi-xronoloji xarakter daşımışdır.

Tədqiqat işində, ümumiyyətlə, Azərbaycan jurnalistikasındakı elmi araşdırmalar sahəsində sistemli və informasiya kimi ümumelmi yanaşmalarla aşağıdakı yeniliklərə cəhd edilmişdir:

- münaqişə jurnalistikasının yaranması, tarixi, inkişafı və müasir dövrdəki əsas xarakteristikası geniş tədqiq edilmişdir;
- bu sahədə çalışan jurnalistlərin fəaliyyət praktikasının tarixinə geniş diqqət yetirilmiş, əvvəllər mövcud olmuş hərbi jurnalistikanın müasir dövrün müharibə jurnalistikası ilə müqayisəsi aparılmış, nəticələr əldə edilmişdir;
- Azərbaycanda "hərbi jurnalist"lə "müharibə jurnalisti", "hərbi jurnalistika" və "müharibə jurnalistikası" anlayışları arasındakı fərqlər elmi, sosial və hüquqi baxımdan izah edilmişdir;
- jurnalistlərin müharibə zamanı və digər ekstremal vəziyyətlər üçün

---

s.; Çubukçu, Mete, Yıkılsın Bu Düzen: Arap Ayaklanmaları ve Sonrası. İstanbul, İletişim Yayınları, 2012, 216 s.; Çubukçu, Mete, Ortadoğu'nun Yeniden İşgali. İstanbul, Kalkedon, 2006, 284 s.; Koçak, Ali, Savaşta Gazetecilik/Yaşamak. Ankara, Gün yayıncılık LTD, 2000, 118 s.;Koçak, Ali, "Türkiye'de Savaş Muhabirlerinin Çalşma Ortamları" / Yüksek Lisans Tezi. Ankara, 2006, 132 s.; Pikte J. S. Beynəlxalq Qızıl Xaç Komitəsi: nadir təsisat. Paris: A-Pedon, Bakı: BQXK, 2006, 118 s.; Пикте Ж. С. Международный Комитет Красного Креста: уникальное учреждение. М.: МККК, 1997, 112 с. ; Пикте Ж. С. Развитие и принципы международного гуманитарного парава. ВТИ. М.: МККК, 1994, 128 с. ; Knightley P. The First Casualty: The War Correspondent As Hero and Myth-Maker from the Crimea to Kosovo. Baltimore, MD: Johns Hopkins University Press, 2002, 592 p.

hazırlanması tədqiq edilmiş, beynəlxalq nümunələrinə diqqət yetirilmiş, beynəlxalq jurnalist təşkilatlarının bu istiqamətdə fəaliyyəti, tövsiyə etdiyi qayda və prinsiplərə geniş yer verilmişdir;

- münaqişə zonalarında fəaliyyət zamanı və sonrakı prosesdə jurnalistin keçirdiyi daxili təlatümlər və hiss etdiyi psixoloji təsirlər, normal həyat fəaliyyətinə uyğunlaşma, reabilitasiya məsələləri üzrə məsələlər araşdırılmışdır.
- Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında xarici və yerli jurnalistlərin fəaliyyətləri müqayisəli şəkildə araşdırılmış, onların münaqişənin işıqlandırılmasında rolu və əhəmiyyəti təhlil edilmişdir;
- bu sahənin inkişaf etdirilməsi məqsədi ilə jurnalist ixtisası üzrə mütəxəssislər hazırlayan təhsil müəssisələri, media qurumları və jurnalistika sahəsi ilə əlaqədar təşkilatların elmi tədqiqat və təcrübə yönümlü tədbirlər təşkil etməsi zərurəti ortaya qoyulmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Elmi araşdırmanın obyekti silahlı münaqişə zonalarında jurnalist fəaliyyətidir. Tədqiqatın predmeti isə münaqişə jurnalistikasının yaranması, inkişaf tarixi, jurnalistin silahlı münaqişə şəraitində fəaliyyətinin hüquqi, sosial, nəzəri əsaslarının öyrənilməsi, təhlil olunması, ölkəmizdə tətbiqedilmə təcrübəsinin həyata keçirilməsidir.

**Araşdırmanın xronoloji hüdudları** 1991–2011-ci illəri əhatə edir, lakin istifadə edilən tədqiqat sənədlərinin keçmişə və indiki dövrə aidiyyəti, problemin tarixinə nəzər yetirilməsi, mövzunun bütün dövrlər üçün aktuallığı, silahlı münaqişə zonasında jurnalist fəaliyyəti növlərinin müqayisəli təhlili nəzərə alınaraq əvvəlki və sonrakı illərin təcrübəsinə də müraciət edilmişdir.

**Tədqiqatçının məqsəd və vəzifələri.** Dissertasiya işini yazmaqda başlıca məqsəd silahlı münaqişə zonalarında jurnalist fəaliyyətinin təcrübəsinin öyrənilməsi və bütün müsbət cəhətləri ilə birgə ölkəmizdə tətbiqidir. Burada jurnalistin qarşılaşdığı çətinlik və problemlərin araşdırılması, onların aradan qaldırılması yönündə konkret təkliflərin işlənib hazırlanması, ümumiləşdirilməsi, müvafiq təlim-tədris proqramlarına daxil edilməsi, tədris olunması əsas məqsədlərdir. Bunlara nail olmaq üçün qarşıya aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

- Haaqa Konvensiyalarına (1899 və 1907-ci illər) Əlavələrin 13-cü və Cenevrə Konvensiyasının (1929-cu il) 81-ci maddəsi, III Cenevrə Konvensiyasının jurnalistlərin statusuna aid 4-cü maddəsinə, Cenevrə Konvensiyasına I Əlavə Protokolun (1977-ci il) "Jurnalistlərin müdafiəsi üzrə tədbirlər" adlanan 79-cu maddəsinə uyğun olaraq jurnalistin və digər əhali qruplarının müdafiəsi üçün həyata keçirilən tədbirlərin təhlil olunması;

– silahlı münaqişələr zamanı jurnalist peşəsi üçün mövcud olan risk və təhlükələrin, peşə borcunu yerinə yetirərkən jurnalistin həlak olması səbəblərinin araşdırılması;
– Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, habelə keçmiş Yuqoslaviya, Əfqanıstan, İraq, Suriya, əksər ərəb və postsovet ölkələrindəki silahlı münaqişələrin işıqlandırılması üzrə xüsusiyyətlərin tədqiqi.

Beynəlxalq silahlı münaqişələrin işıqlandırılmasında KİV-in rolu, məsuliyyəti, üsul və metodları, silahlı münaqişə zonasında mətbuat azadlığı və jurnalist etikası problemləri, jurnalistlərlə silahlı qüvvələrin nümayəndələri arasında qarşılıqlı əlaqələrin səciyyəvi xüsusiyyətlərinin, milli və xarici ənənələrin müqayisəli təhlili də bu tədqiqat işinin vəzifələrindəndir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın predmeti jurnalistika, beynəlxalq hüquq, siyasi elmlər və beynəlxalq münasibətlər kimi elm sahələri ilə əlaqədar olduğu üçün dissertasiya işində bu elmlərə xas olan nəzəri-metodoloji üsullardan geniş istifadə olunmuş, eyni zamanda fənlərarası interdisiplinar yanaşma metoduna daha çox üstünlük verilmişdir.

Konkret situasiyaların öyrənilməsində istifadə edilmişdir:
– ümumelmi infromativ yanaşmadan;
– problemin işıqlandırılması konsepsiyalarından;
– problemin öyrənilməsi və işıqlandırılması üzrə yerli, həmçinin xarici tədqiqat işlərində istifadə olunan metodoloji və elmi nəticələrdən;
– ardıcıllıq və sistemlilik metodlarından.

Tədqiqat işində qarşıya qoyulmuş məqsədə nail olmaq üçün sənəd və materiallar aşağıdakı istiqamətlər üzrə təhlilə cəlb olunmuşdur:
– problemin ictimai və hüquqi təbiətini əks etdirən əsərlər;
– müxtəlif yerli və xarici mətbuatda mövzu ilə bağlı yer almış materiallar;
– elektron mediada münaqişə jurnalistikasının nümunələri, problemin tədqiqinə həsr olunmuş müxtəliftipli materiallar;
– silahlı münaqişə zonalarında jurnalistlərin fəaliyyətini tənzimləyən sənədlər, ölkədə və xaricdə peşəkar jurnalistlərin problematika ilə bağlı fikirləri.

Mövzunun istiqamətinə uyğun olaraq jurnalistin beynəlxalq humanitar hüquqa aid bütün Konvensiyaları, digər aidiyyəti beynəlxalq sənədləri və ölkəmizin həmin Konvensiyalara qoşularaq üzərinə götürdüyü öhdəlikləri mənimsəməsi, özünü qorumaq bacarığına, xüsusi vərdişlərə yiyələnməsi məsələləri tarixi və müqayisəli metodologiya üzrə tədqiq edilmişdir.

Problem müharibə şəraitində olan Azərbaycan üçün daha aktual olduğundan mövcud bütün münaqişə jurnalistikası nümunələrinin və bu sahədə çalı-

şan jurnalistlərin yaradıcılıq problemlərinin araşdırılmasında müqayisə-analiz metodundan geniş istifadə olunmuşdur.

Dissertasiya işində təqdim olunan geniş nəzəri təhlil və praktik nümunələrə münasibətdə elmi ümumiləşdirilmələr sistemli və məntiqi metodlar əsasında həyata keçirilmişdir. Tədqiqat işində çoxsaylı beynəlxalq jurnalist təşkilatlarının münaqişə zonalarında fəaliyyət göstərən jurnalistlərə tövsiyə etdiyi nəzəri və konseptual yanaşmalara da geniş yer verilmişdir.

**Tədqiqatın empirik bazası.** Araşdırmanın mənbə bazası kimi, beynəlxalq humanitar hüquqa aid sənədlər, Cenevrə və Haaqa Konvensiyalarının və onlara Əlavə Protokolların müvafiq müddəaları, onların Azərbaycan qanunvericiliyində implementasiyası, jurnalistika nəzəriyyəçi-lərinin fövqəladə hallarda KİV-in idarə olunması, jurnalistlərin hüquq və öhdəliklərinə aid fikir və mülahizələri, aidiyyəti tədqiqat əsərləri, elmi nəticələr əsas götürülmüşdür.

Tədqiqatda jurnalistin münaqişə zonalarında müdafiəsi, statusunun müəyyən edilməsi məsələləri, silahlı münaqişə zonasında ezamiyyətdə olan jurnalistin (və ya hərbi jurnalistin) statusuna aid beynəlxalq və milli sənədlərdən hərtərəfli istifadə edilmişdir. Dissertasiyanın mənbə bazasına daxil olan BQXK-nın Azərbaycan, türk, rus və ingilis dillərində nəşr etdikləri sənədlər toplusu, kitab və məcmuələrdən də istifadə edilmişdir[1].

Tədqiqat işində Azərbaycan Milli Kitabxanasının dövri mətbuat arxivindən və İnternet resurslarından geniş istifadə edilmişdir. Azərbaycan, Türkiyə, Rusiya media qurumlarının və beynəlxalq təşkilatların jurnalistika sahəsi ilə bağlı İnternet saytlarında mövzuya aid əhəmiyyətli materiallar seçilərək geniş tədqiq edilmişdir. Qeyd etmək lazımdır ki, hazırda kitabxanalarda təkcə rəsmi dövlət orqanlarının və beynəlxalq qurumların qəbul etdikləri normativ-hüquqi sənədlər deyil, nəşr olunan kitab, jurnal və qəzetlərin müxtəlif formatda olan elektron variantları da saxlanılır. Bu üstünlük dissertasiyası üzərində işləyərəkən mənbə bazasından istifadəni olduqca asanlaşdırmışdır.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** Özünəməxsus peşəkarlıq qaydalarına malik olan müharibə jurnalistikasının problemləri də digər sahələrdə müşahidə edilənlərdən fərqlidir. Jurnalistlərin belə çətin vəziyyətdən itkisiz çıxması əksər hallarda onların təcrübəsindən və digər vacib amil-

---

[1] Pikte J. S. Beynəlxalq Qızıl Xaç Komitəsi: nadir təsisat. Paris: A-Pedon, Bakı: BQXK, 2006, 118 s.; Beynəlxalq humanitar adət hüququna dair araşdırma: silahlı münaqişə zamanı hüquq normalarını daha yaxşı anlamaq və onlara daha dolğun əməl etmək // Beynəlxalq Qızıl Xaç jurnalı, 2005, cild 87, №857, 30 s.; Beynəlxalq humanitar hüququn implementasiyası üzrə komitələr və ya digər milli orqanlar. Ekspertlər müşavirəsinə dair hesabat. Bakı: BQXK, M-dizayn, 2005, 112 s.; Beynəlxalq Qızıl Xaç Komitəsi: nadir təsisat. Paris: BQXK, A-Pedon, 2007, 118 s.; Пикте Ж. С. Международный Комитет Красного Креста: уникальное учреждение. М.: МККК, 1997, 112 с.

lərdən asılı olur. Bunun üçün mühafizəolunma, münaqişə tərəfləri ilə əlaqələrin düzgün qurulması, informasiya almaq üçün münasib vaxtın seçilməsi kimi, bir çox qaydalara əməl olunması üzrə əsas prinsiplərin öyrənilməsi və tətbiqinin xüsusi əhəmiyyəti vardır. Qeyd olunduğu kimi, sadəcə vəzifəsini yerinə yetirməyə çalışan jurnalistlərin ekstremal şəraitlərdə təhlükəsizliyinin təmini üçün BHH prinsiplərinin öyrənilməsi və nəzəri-praktik istiqamətlərinin tədqiqi bir çox cəhətdən aktualdır. Uzun illər silahlı münaqişə zonalarında işləyən jurnalistlərin təcrübəsinin öyrənilməsi və ümumiləşdirilərək tədris edilməsi gələcək jurnalistlərin bu sahədə bilik və bacarıqlarının artırılması üçün xüsusi önəm daşıyır.

Jurnalistlərin çoxsaylı publisistik yazıları və şəxsi həyat hekayələri mövcuddur. Bu baxımdan dissertasiya işində jurnalist, tədqiqatçı və hərbi jurnalistikanı müşahidə edənlərin maraqlı və aktual fikirləri də təhlil edilmişdir. Mövzu haqda tədqiqat əsərləri çox az olsa da, beynəlxalq təcrübəyə geniş yer verilməyə cəhd edilmiş, ölkəmizlə yanaşı, Rusiya, Türkiyə və digər ölkələrdən olan nəzəriyyəçi və praktiklərin fikirlərindən də istifadə olunmuşdur.

Yuxarıda qeyd olunanları nəzərə alsaq, tədqiqat zamanı əldə edilən nəticələr silahlı münaqişələrin işıqlandırılmasında kütləvi informasiya vasitələrinin işinin təşkili sahəsində etibarlı vəsait ola bilər. Əldə olunan nəticələr yerli, beynəlxalq media qurumları və digər təşkilatların keçirəcəyi konfrans, simpozium, seminar, yığıncaq və tədbirlərdə istifadə edilə bilər. Dissertasiya işi jurnalistikaya dair bəzi dərslik və dərs vəsaitlərinin hazırlanmasında da mühüm mənbə ola bilər.

Tədqiqat işi və müəllifin mövzu ilə bağlı elmi nəşrlərdə çap olunan elmi məqalələri müxtəlif KİV nümayəndələri üçün əhəmiyyətli vəsait ola bilər. Əsərdən jurnalistlərlə yanaşı, jurnalistika sahəsindəki mütəxəssislər, beynəlxalq təşkilatların nümayəndələri, jurnalistika fakültəsinin tələbələri, beynəlxalq münasibətlər, beynəlxalq hüquq və digər əlaqədar fənləri tədris edən alimlər də yararlana bilərlər.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiya işi Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin mövzu ilə bağlı xaricdə və ölkədə nəşr edilən jurnallarda çap olunmuş elmi məqalələrində (həmçinin həm-müəllifi olduğu məqalələrdə), yerli və beynəlxalq elmi-praktik konfrans-lardakı tezis və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi ixtisarların siyahısı, giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir.

## Tədqiqatın ümumi məzmunu

Dissertasiyanın **"Giriş"** hissəsində tədqiq edilən mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi, tarixi, empirik bazası təhlil edilmiş, nəzəri-metodoloji əsaslarına aydınlıq gətirilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, dissertasiya işinin elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir. Çünki silahlı münaqişə zonalarında jurnalist fəaliyyətinin aktual problemləri dəfələrlə qabardılsa da, beynəlxalq səviyyədə jurnalistlərin qorunması məsələsi ilə bağlı ciddi tədbir görülməmişdir.

Dissertasiyanın I fəsli **"Beynəlxalq humanitar hüququn mahiyyəti və silahlı münaqişə şəraitində jurnalist fəaliyyətinin hüquqi cəhətləri"** adlanır. Bu fəsil 2 yarımfəsildən ibarətdir. Silahlı münaqişə zonalarında çalışan jurnalistin fəaliyyəti bilavasitə beynəlxalq humanitar hüquqla bağlı olduğu və BHH-yə aid sənədlərlə tənzimləndiyi üçün **"Müasir beynəlxalq hüquqda silahlı münaqişə zonalarında jurnalist işinin tənzimlənməsi"** adlanan 1-ci yarımfəsildə ilk növbədə BHH-nin mahiyyəti, onun yaranma tarixi, silahlı qarşıdurma şəraitində jurnalistlərin fəaliyyəti ilə əlaqədar elmi araşdırmaların yer aldığı mənbələrə diqqət yetirilmişdir.

BHH beynəlxalq hüququn bir qoludur. Bu hüquq beynəlxalq birliyin üzvləri, yəni dövlətlər arasında münasibətləri tənzimləyir. Beynəlxalq hüquq fövqəlmillidir və bütün dövlətlər onun əsas müddəalarını yerinə yetirməyə borcludur. Beynəlxalq silahlı münaqişələr bütün Konvensiyaların və I Əlavə Protokolun, qeyri-beynəlxalq silahlı münaqişələr isə bütün Cenevrə Konven-siyaları üçün eyni olan 3-cü maddənin və II Əlavə Protokolun tətbiq dairəsinə aiddir.

21 aprel 1993-cü il tarixində Azərbaycan Respublikası sözügedən Konvensiyalara qoşularaq bu sənədlərdən irəli gələn öhdəlikləri öz üzərinə götürmüşdür. Bundan əlavə, 1993-cü ildə Azərbaycan Respublikası "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" Konvensiyaya qoşulmuşdur[1].

Bugünkü umumi və əsasən yazılı beynəlxalq humanitar hüququn yaranması bilavastə iki şəxsin – Anri Dünan və Frensis Liberin adı ilə bağlıdır. BHH ilə bağlı ilk beynəlxalq saziş 1864-cü il avqustun 22-də Cenevrədə imzalanmışdır. 1906-cı ildə BQXK-nın təklifi ilə, bir neçə müharibənin təcrübəsi nəzərə alınmaqla, Konvensiyaya yenidən baxılmışdır. Birinci Dünya müharibəsi Cenevrə hüququ üçün ciddi sınaq oldu və 1929-cu ildə ona yenidən baxılmasına gətirib çıxartdı[2]. Həmin saziş 1949-cu ildə Cenevrədə yenidən nəzərdən keçirilmiş və təkmilləşdirilmişdir.

BHH normalarının yerinə yetirilməsinə, əsasən, beynəlxalq humanitar

---

[1] Politologiya və beynəlxalq münasibətlər: dərs vəsaiti. Heydər Əliyev adına AAHM. Bakı: Hərbi Nəşriyyat, 2014, 320 s.

[2] http://arxiv.az/az/az.apa.az/327301/BQXK-ninAzerbaycan+ numayendeliyi

təşkilat – Qızıl Xaç (Qızıl Aypara) Beynəlxalq Komitəsi nəzarət edir. Münaqişə zonalarında BQXK ilə yanaşı, çox vaxt jurnalistlərlə qarşılaşan digər beynəlxalq təşkilatlar işləyir. Onlara BMT-nin sülhməramlı qüvvələri, ATƏT, "Sərhədsiz həkimlər", "Sərhədsiz reportyorlar" və digər beynəlxalq humanitar qeyri-hökumət təşkilatları, Qaçqınlar üzrə BMT-nin Ali Komis-sarlığı Ofisinin missiyası daxildir[1]. Jurnalistlərin hüquqlarının qorunması sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları arasında Beynəlxalq Jurnalistlər Təşkilatı, Beynəlxalq Jurnalistlər Federasiyası, Beynəlxalq Mətbuat İnstitutu, Beynəlxalq Söz Azadlığı Mübadiləsi şəbəkəsi və başqa birliklər var[2].

I fəslin 2-ci yarımfəsli **"Cəbhə bölgələrində jurnalist fəaliyyətinin hüquqi aspektləri"** adlanır. İndiki dövr jurnalistikasının mühüm məsələlərindən biri silahlı münaqişə zonalarında jurnalistlərin fəaliyyət hüququdur. Silahlı münaqişə zonalarında jurnalist fəaliyyətinin tənzimlənməsi Cenevrə və Haaqa hüququnda təsbit olunmuşdur. Bu yarımfəsildə silahlı münaqişə şəraitində jurnalistin fəaliyyət hüququ təhlil edilmişdir. Əldə edilmiş nəticələr göstərir ki, silahlı münaqişə zonalarına ezam olunan jurnalistlər beynəlxalq humanitar hüquqla ona verilən imtiyazlardan faydalanmaq üçün müvafiq beynəlxalq sənədləri dərindən öyrənməli və peşəkar fəaliyyət müddətində ondan səmərəli istifadə etməlidir.

"Münaqişə jurnalisti" müharibə, toqquşma və böhran bölgələrində hər hansı bir hərbi qüvvə ilə hərəkət etmədən müstəqil olaraq öz peşəsini yerinə yetirən mülki şəxsdir. Müharibə jurnalistikasını da özündə ehtiva edən "böhran dövrü jurnalistlkası" ("ekstremal jurnalistika") da son illərdə ixtisas sahəsi olaraq qəbul edilməkdədir. Müharibə, qarşıdurma, sui-qəsd, böhran, kütləvi hücumlarda necə xəbər hazırlanması məsələsi son 20 ildə bu sahə üzrə beynəlxalq ədəbiyyatda "Conflict Journalism" ("Münaqişə jurnalisti-kası") adı altında bir altkateqoriyanı inkişaf etdirmişdir[3].

Mütəxəssislərin qənaəti belədir ki, hərbdən yazan və hərbi informasiyanı geniş ictimaiyyətə çatdıran jurnalistləri fəaliyyət xüsusiyyəti və peşəkarlıq baxımdan 5 yerə bölmək olar:

1) hərbi reportyorlar;
2) hərbçi jurnalistlər;
3) hərbdən yazan mülki jurnalistlər;
4) ümumiyyətlə, jurnalistlər;
5) qeyri-peşəkarlar.

---

[1] http://studopedia.org/8-101339.html

[2] Məmmədli S.R. Beynəlxalq jurnalistika dünya media sistemində: dərs vəsaiti. Bakı: BDU nəşriyyatı, 2013, 144 s.

[3] http://www.uidergisi.com.tr/wp-content/uploads/2011/06/Savaslarda-Asker-Medya-Iliskileri-nin-Geldigi-Son-Asama.pdf

Silahlı münaqişə şəraitində jurnalistlərin fəaliyyətinin tarixinə nəzər saldıqda praktik olaraq hərbdən yazan mülki jurnalistlərin də müxtəlif qruplara bölündüyü ortaya çıxır. Beləliklə, müharibə jurnalistlərini dörd qrupda toplamaq olar: 1. Obyektivliyi müdafiə edən jurnalistlər; 2. Obyektivliyi qoruyub, döyüşün həqiqi tərəfini göstərən jurnalistlər; 3. "Bir iş görmək lazımdır" deyənlər; 4. Əsgərlərlə birlikdə hərəkət edənlər.

Birinci qrup – döyüş meydanında nə baş verdiyi, neçə ölü, neçə yaralı olması haqqında məlumatları verənlərdir. Yəni çox ifrat obyektivlik tərəfdarlarıdır. İkinci qrup – obyektivlikdən imtina edən, amma müharibənin digər tərəfini öz şərhinə çox yer vermədən çatdırmağa çalışanlardır. Üçüncü qrup müharibənin içində, o insanlarla birlikdə eyni çətinliklərə məruz qalıb, bir mərhələdən sonra "qırğının, müharibənin dayandırılması" istiqamətində mövqe ortaya qoyanlardır. Dördüncüsü, II Dünya müharibəsində və Vyetnamda gündəmə gələn, İraq savaşında fəaliyyətinin pik nöqtəsinə çatan "embedded" ("təhkim edilmiş") jurnalistlərdir[1].

Bu yarımfəsildə ölkəmizdə bu sahədə qanunvericilyin jurnalistlərlə bağlı hüquqlarına da toxunulmuşdur."KİV haqqında Qanun"un 50-ci maddəsi bütün dövlət qurumlarına, siyasi və ictimai təşkilatlara akkreditə qaydalarını müstəqil müəyyən etmək hüququ verir[2].

"Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dövlət sirrinə aid edilə bilən məlumatlar sistemində hərbi sahə ilk sırada durur. Bu məlumatların hər biri müharibə vəziyyətində olan ölkənin taleyüklü mahiyyətini təşkil edir və onların barəsində hər hansı informasiya "Milli təhlükə" səviyyəsində faciə törədə bilər[3]. Bu kimi təhlükələrin qarşısını almaq üçün Azərbaycan Respublikasının Müdafiə Nazirliyi 2014-cü ildə "Silahlı Qüvvələrdə KİV-in nümayəndələri ilə işin təşkili haqqında Təlimat" hazırlayaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin KİV nümayəndələri ilə münasibətlərinin tənzimlənməsi sahəsində hərbi infor-masiya fəaliyyətinin istiqamətlərini müəyyənləşdirmişdir[4].

Qeyd olunan səbəblər və ölkəmizin müharibə vəziyyətində olduğunu nəzərə alaraq Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" 24 sentyabr 2014-cü il tarixli

---

[1] Ramazanov Q.Z. Silahlı münaqişələrin işıqlandırılmasında obyektivlik problemləri // "Jurnalistika" ictimai-siyasi humanitar elmlər seriyası, 2015, № 3, s.118-127

[2] Silahlı Qüvvələrdə KİV nümayəndələri ilə işin təşkili haqqında Təlimat. Bakı: Hərbi Nəşriyyat, 2014, 22 s.

[3] Mazanlı İ.A. Söz azadlığı və informasiya təhlükəsizliyi: milli və beynəlxalq təminat. Terminlər. Bakı: UniPrint, 2005, 160 s.

[4] Silahlı Qüvvələrdə KİV nümayəndələri ilə işin təşkili haqqında Təlimat. Bakı: Hərbi Nəşriyyat, 2014, 22 s.

742 nömrəli Sərəncam imzaladı. Həmin sərəncamın icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 14 avqust 2015-ci il tarixli 279 nömrəli qərarı ilə təsdiq edilmiş "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyət-lərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası" müəyyənləşdirilmişdir...[1].

Dissertasiyanın ikinci fəsli **"Silahlı münaqişə zonalarında jurnalistin praktik fəaliyyəti və müasir problemləri"** adlanır və 2 yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Müharibə şəraitində jurnalist fəaliyyətinin tarixinə baxış"** adlanır. Müharibə jurnalistikasının tarixi Krım müharibəsindən hesablanır və 160 illik müddət ərzində bu sahə müxtəlif formalarda ortaya çıxsa da, müəyyən inkişaf dövrü keçmişdir. Hərbi jurnalistika ənənəsi isə uzaq keçmişə malikdir və Sezarın "Qalliya müharibəsi haqqında qeydlər"ini bu sahədəki ilk nümunələr adlandırmaq olar. Müəyyən dövrlərdə bu vəzifəni tarixçilər, yazıçılar (Heredotun "Tarix" kitabı, Homerin "İlliada"sını misal çəkmək olar) və digərləri öhdələrinə götürsələr də, bütün hallarda birtərəfli yanaşmalardan qaçmaq mümkün olmamışdır.

Hərbçilərin xəbərləri məhdudlaşdırması təcrübəsinin də Krım müharibəsi ilə başladığını söyləmək olar. Qəzetlərin getdikcə vüsət alması cəmiyyətin xəbər əldə etmək imkanları baxımından üstünlük yaratmış, amma ordu və hərbçilər bundan razı qalmamış, xəbərin düşmənin xeyrinə olduğunu düşünmüşər. XIX əsrin sonu XX əsrin əvvəllərində silahlı münaqişə zonalarındakı hadisələri işıqlandıran jurnalistlər, ümumiyyətlə, döyüşən orduların hərbi hesabatlarını, gündəlik məlumatlarını xəbərə çevirərək qəzetlərə göndərən şəxslər idi.

Ötən əsrin 60-cı illərində başlayan və tam on il davam edən Vyetnam müharibəsini təkcə ABŞ media nümayəndələri deyil, dünyanın xəbər agentliklərinin jurnalistləri də fəal şəkildə işıqlandırmışdır. XX əsrin 70–80-ci illərində hərbi jurnalistikanın inkişafı qeyri-müəyyənliyi ilə xarakterizə olunmuşdur. Misir-İsrail hərbi münaqişəsi və Əfqanıstan böhranının mətbuat-da işıqlandırılması son dərəcə zəif idi. Bu vəziyyət bir tərəfdən ağır senzuranın tətbiqi və jurnalistlərin düşdüyü şəraitlə əlaqədar idi, digər tərəfdən münaqişələr bir çox ölkənin maraqlarını cəlb etdiyindən müxbirlərin fəaliyyət istiqaməti ilk növbədə bu maraqlara xidmət etməli idi. Buna baxmayaraq, hərbi jurnalistika (həm də müharibə jurnalistikası) inkişaf etdi.

Müstəqil Azərbaycan Respublikasının müharibə jurnalistikasının yaranması rəsmi mətbuatın hərbi jurnalistlərinin adı ilə bağlıdır. Müdafiə Nazirliyinin orqanı olan "Xalq Ordusu" qəzeti 11 fevral 1992-ci ildən nəşr edilməyə başlanmış, 24 aprel 1993-cü il tarixindən adı "Azərbaycan Ordusu" kimi

[1] http://www.mod.gov.az/index2.php/content=news/2015/26_12_melumat_akkredite

dəyişdirilmişdir. "Azərbaycan Ordusu" qəzeti dövriyyəsi həftədə iki-üç dəfə olmaqla indiyə qədər nəşrini davam etdirir. Aparılan müşahidə və tədqiqatlardan görünür ki, dövrün çətinliyinə və rəsmi orqan olmasına baxmayaraq, qəzetin əksər əməkdaşları jurnalist fəaliyyətinin əsas prinsiplərinə və xalqın vətənpərvərlik ruhuna xələl gətirməyəcək şəkildə fəaliyyət göstərmişlər. Hazırda Azərbaycan mediasında hərbi sahədən yazan və hərbi jurnalistlərin fəaliyyəti özünü o qədər qabarıq göstərməsə də, bəzi televiziya proqramlarında və dövri nəşrlərdə bu sahə üzrə ixtisaslaşmış jurnalistlər və ekspertlərin fəaliyyətinə rast gəlmək mümkündür.

Son 20 ildən bəri münaqişə jurnalistikası sahəsində kəskin rəqabət gedir. Xüsusilə qlobal xəbər agentlikləri və televiziya kanalları bu yarışda iştirak edir. Hətta bu yarışa "Frans-Press", "Röyter", "İnter-Faks", İTAR-TASS, "Assoşeyted Press" agentlikləri, CNN, BBC, "Fox News", "Euronews", "Deutsche Welle" kimi Avropa media qurumları ilə yanaşı, yeni-yeni iştirakçılar – Türkiyənin TRT kanalı, "Anadolu" agentliyi, Qətərin "Əl-Cəzirə" kanalı da qoşulmuşdur. Onlar əslində informasiyanın çatdırılmasında heç də Avropanın media qurumlarından geri qalmır. Fikrimizcə, Azərbaycan media qurumlarında gedən müasirləşmə və inkişaf onların da qabaqcıl xəbər kanalları sırasına çıxmalarına imkan verə bilər.

II fəslin **"Jurnalistlərin ekstremal fəaliyyətə hazırlanması və psixoloji təsirə səbəb olan amillər"** adlanan 2-ci yarımfəslində jurnalistlərin müharibə zamanı və digər ekstremal vəziyyətlər üçün hazırlanmasının beynəlxalq nümunələrinə diqqət yetirilmişdir. Jurnalistin münaqişə vəziyyəti üçün hazırlanmasının ölkəmizdəki təcrübi nümunələrinin xüsusiyyətləri və bu sahənin inkişaf etdirilməsi istiqamətləri üzrə nəticələr əldə olunmuşdur. Hərbi münaqişə bölgəsində davranışı tənzimləyən qaydalar jurnalist üçün həyati əhəmiyyətə malikdir.

Son müharibələrin təcrübəsindən çıxış edən jurnalist təşkilatları mətbuat nümayəndələrinin vəzifələrini uğurla yerinə yetirməsinə yardım edəcək davranış qaydalarını işləyib hazırlaya bilmişlər. Lakin bu sahədə hüquqi baza haqqında danışmazdan əvvəl "təhlükəsizlik" anlayışı ilə hansı məsələnin nəzərdə tutulduğunu müəyyən etmək lazımdır. Ümumi mənada, həmin termin bu və ya digər obyektin normal fəaliyyətinə maneə (zərər) törədə biləcək müxtəlif növ təhlükələrdən sığortalanması kimi başa düşülür. Bu vəziyyətdən cüzi dərəcədə sapma təhlükəli şəraitin və ya fövqəladə halın baş verməsi kimi qəbul edilir[1].

Ekstremal vəziyyətlərdə çalışmalı olan jurnalist redaksiya tapşırıqlarını tam şəkildə yerinə yetirmək üçün, habelə döyüş zonasına getməzdən əvvəl

[1] http://www.mic.org.ru/1-vypusk/447-problemy-obespecheniya-bezopasnosti-zhurnalista-v-goryachikh-tochkakh

gələcək təhlükəsizliyi və fəaliyyəti üçün lazımi sənədləri götürməlidir. Onun şəxsiyyətini təsdiq edən sənədi özü ilə daşıması əsasdır, çünki bu sənəd jurnalistlərin hüquqi statusunu müəyyən edir və bəzi hallarda onun həyatını xilas edə biləcək qədər işə yaraya bilər.

Bu yarımfəsildə jurnalistlərin məruz qaldığı psixoloji təsir məsələlərinə də yer verilir. Müşahidələr göstərir ki, müharibə, terror və fəlakətlərin, təbii psixoloji travma təsiri göstərən hadisələrin şahidi olan jurnalistlər bunları öz həyatlarına yönəlmiş bir təhdid kimi qəbul edirlər. Travmatik hadisənin təsir gücü və şəxsin bu hadisəni qiymətləndirməsində yaşadığı çətinliklər onda bəzi psixi reaksiyaları üzə çıxarır. Psixoloji baxımdan travmaya səbəb olan hər hadisə depressiya və qorxu hissinin keçirilməsinə gətirib çıxarır.

Müharibə jurnalistikasında təcrübə, yerində praktik işlə məlumat əldə etmək yolu ilə qazanılır. Təcrübə çox əhəmiyyətlidir, çünki həyatın və döyüş meydanının reallığı, riski kitablarda yazılandan fərqlidir. Üstəlik, müharibə kimi kritik vəziyyətlərin, fövqəladə halların, habelə manipulyasiyanın, səhv məlumatlandırmanın bol olduğu, xəbər çatdırmağın çətinləşdiyi dövrlərdə sözlər və mikrofonlar silahlardan daha təhlükəli ola bilər. Buna görə müharibə jurnalisti istifadə etdiyi sözlərə, qurduğu cümlələrə və hazırladığı xəbərlərə diqqət etməlidir[1].

Dissertasiyanın III fəsli **“Ermənistan–Azərbaycan müharibəsində jurnalist fəaliyyətinin əsas xüsusiyyətləri və təhlükəsizlik məsələləri”** adlanır. Bu fəsildə Ermənistan və Azərbaycan arasında gedən I Qarabağ müharibəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında xarici və yerli jurnalistlərin fəaliyyətləri geniş araşdırılmış, onların münaqişənin işıqlandırılmasında iştirakı və əhəmiyyəti təhlil edilmişdir. Azərbaycana qarşı elan olunmamış müharibənin işıqlandırılmasında xarici jurnalistlərin fəaliyyəti və təcrübəsinin özünəməxsus rolu III fəslin **“Dağlıq Qarabağ münaqişəsinin dünya ictimaiyyətinə çatdırılmasında jurnalistlərin rolu və obyektivlik prinsipləri”** adlanan 1-ci yarımfəslində qeyd olunmuşdur. Qarabağ münaqişəsi başda olmaqla, silahlı münaqişələrin işıqlandırılmasının spesifik xüsusiyyətləri təhlil edilmiş, bu baxımdan jurnalistlərin fəaliyyətində obyektivliyin qorunması, jurnalistin çalışdığı qurumların siyasətinin bu məsələlərə təsiri araşdırılmışdır.

Son dövrlərin bütün silahlı münaqişələrində olduğu kimi, informasiya faktoru Qarabağ müharibəsində də az rol oynamamışdır. Azərbaycanda 1980-ci illərin sonları, 1990-cı illərin əvvəllərində məlum olaylar başlayarkən Türkiyənin TRT televiziyası, “Günaydın”, “Hürriyyət”, “Sabah” və “Milliyyət” qəzetləri, Rusiya, ABŞ, Fransa, Almaniya və dünyanın digər

[1] https://www.cpj.org/ru/

dövlətlərinin müxtəlif kütləvi informasiya vasitələrinin nümayəndələri ölkəmizə ezam olunmuşdular[1]. Regiona xarici jurnalistlərin gəlməsi erməni var-varlığını dünyaya göstərməkdə mühüm rol oynamışdır[2]. Heç bir humanizm prinsipinə və müharibə hüququnda yer alan qaydalara məhəl qoymayan Ermənistanın hərbi əsirlərə hansı meyarlarla yanaşdıqları da jurnalistlərin gözündən qaçmamışdır.

Bu yarımfəsildə tədqiq edilən digər problem obyektivliklə bağlıdır. Obyektivlik jurnalistika ilə qaynaşmış bir anlayışdır. Döyüş meydanında da obyektivlik ümumi bir meyar kimi qəbul edilir. Müharibələr haqda obyektiv məlumatların çatdırılması məsələsi ciddi problem olaraq qalmaqdadır. Bəzən daxili senzura, bəzən də media qurumunun hansısa dairələrdən asılılığı buna mane olur. Gəlinən ümumi nəticələrdən biri odur ki, münaqişədə iştirak edən tərəfin jurnalistinin dünya ictimaiyyəti üçün tam obyektiv, tərəfsiz məlumat ötürməsi mümkünsüz bir haldır.

Buna baxmayaraq, obyektivliyi özünə həyat kredosu seçən əsl jurnalistlərin fəaliyyətinin qiymətləndirilməsi vacibdir. Azərbaycanın Ümummilli lideri Heydər Əliyev jurnalistlərin obyektivliyi məsələsini yüksək qiymətləndirmişdir: "... Əlbəttə, bizim hər birimiz jurnalistdən obyektivlik, düzlük, səmimilik gözləyirik. Lakin jurnalistlər bu və ya digər qüsurları aşkara çıxararaq, nöqsanları aşkara çıxararaq, qanuna, konstitusiya-ya zidd faktları aşkara çıxararaq, bəlkə də başqalarına nisbətən sözü üzə daha şax və açıq deyir, bəzən də xoşagəlməz olurlar. Bununla bərabər, onlar cəmiyyətin demokratikləşdirilməsi işinə, siyasi plüralizm prinsipinin bərqərar edilməsinə və dərinləşməsinə olduqca böyük kömək göstərirlər"[3].

Bu fikirləri də əsas alaraq demək olar ki, döyüş meydanlarından obyektiv xəbər hazırlamağın əsas şərti bitərəf olmaqdır. Buna görə də münaqişədən reportaj hazırlayan və ya yazı yazan müxbir son dərəcə soyuqqanlı olmalıdır.

I Qarabağ müharibəsinin işıqlandırılmasının təhlili zamanı yerli və xarici jurnalistlərin fəaliyyətinin müqayisəsinə imkan yaranmışdır. Belə ki, "qaynar nöqtə"də işləmək üzrə təcrübəsi və anlayışı olmayan Azərbaycan jurnalistləri olayları vətənpərvərlik mövqeyindən işıqlandırmağa çalışmışlar. Digər tərəfdən, hərbi münaqişə bölgələrində çalışan yerli və xarici müxbirlər cəsarətli olmasaydılar, beynəlxalq ictimaiyyət olub-bitəndən xəbərdar ola bilməyəcəkdi.

---

[1] Ekstremal jurnalistika. "Dinc dünya" Araşdırma Mərkəzi / Ə.P. Mehdiyevin redaktəsi ilə. Bakı: Şərq-Qərb ASC, 2003, 232 s.

[2] Армянская проблема в контексте мирового баланса сил. TPT. Анкара: 2007, 134 с.

[3] Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı:Azərbaycan Universiteti nəşriyyatı, 1997, 136 s.

III fəslin **“Münaqişə zonalarında jurnalistlərin təhlükəsizlik problemləri və onların aradan qaldırılması yolları”** adlanan 2-ci yarımfəslində jurnalistlərin silahlı münaqişə zonalarında fəaliyyət zamanı qarşılaşdıqları problemlər və onların həlli yolları araşdırılmışdır. Bu baxımdan reportyorların təhlükəsizlik məsələləri təhlil edilmiş, son 30 il ərzində silahlı münaqişə zonalarında jurnalist itkilərinin statistikası aparılmış, itkilərin qarşısının alınması məsələlərinin həllində mütəxəssislərin müxtəlif fikir və yanaşmaları ilə nəticələr əldə edilmişdir.

Jurnalistikanın tədqiq edilən növü təhlükəli peşə məşğuliyyətidir. Belə ki, beynəlxalq jurnalist təşkilatlarının statistikasına görə, hər il dünyada peşə borcunu yerinə yetirərkən təxminən 100 jurnalist həlak olur, yüzlərlə jurnalist isə müxtəlif növ zorakılıqlara məruz qalır. 25 ildən çoxdur müharibə vəziyyətində olan ölkəmizdə də 13 jurnalist bu yolda həyatını qurban vermiş, 16 jurnalist yaralanaraq şikəst olmuşdur[1].

Müasir dövrdə münaqişə jurnalistinin təhlükəsizliyinin qorunması məsələsinə diqqət yetirəndə jurnalist fəaliyyətinin çətin və təhlükəli olduğu bir daha təsdiqlənir. Problem ondadır ki, müharibənin ortasında qalmağa məcbur olan media nümayəndəsinin təhlükəsizliyinin müdafiəsi qanunla olduqca formal şəkildə qorunur. Buna görə də münaqişə bölgəsində olan jurnalist həm öz vəzifələrini yerinə yetirməyə, həm də sağlamlığını qorumağa çalışır, yaradıcılıqdan uzaqlaşır. Jurnalistlərin belə çətin vəziyyətdən salamat çıxması əksər hallarda onların təcrübəsindən asılıdır. Jurnalist itkilərinin qarşısını alan əhəmiyyətli tədbirlər təhlükələrin fərqinə varmaq qabiliyyətinin inkişaf etdirilməsi və ilkin hazırlığın aparılmasıdır.

Dissertasiya işinin **“Nəticə”** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilmiş, aparılan araşdırmalara yekun vurulmuş, həll olunası problemlər göstərilmiş, əldə olunmuş nəticələr qeyd olunmuş, perspektiv üçün təklif və tövsiyələr müəyyənləşmişdir.

Əldə edilən ümumi nəticələrə görə, bu tədqiqat işini silahlı münaqişə zonalarında jurnalist fəaliyyətinin obyektivlik prinsipləri əsasında, hüquqi, elmi-nəzəri və praktik cəhətdən araşdırılması cəhdi kimi qiymətləndirmək olar. Bu sahə üzrə beynəlxalq təcrübənin müasir Azərbaycan mediasında tətbiqi məsələləri aktuallaşdırılmalıdır.

Ölkəmizdə müharibə vəziyyətinin davam etdiyini və tədqiq olunan aktual problemlə bağlı Azərbaycan dilində elmi ədəbiyyatın çatışmazlığını nəzərə alaraq münaqişə (müharibə) jurnalistinin fəaliyyətinin hərtərəfli əhatə olunduğu sanballı elmi əsərlərin, kitab və digər əyani vəsaitlərin hazırlanması, nəşr olunması xüsusi əhəmiyyətə malik addımlardan ola bilər.

---

[1] Журналисты на войне в Карабахе. М.: Права человека, 2002, 184 с.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı işlərində öz əksini tapmışdır:**

1. Silahlı münaqişə zonalarında hərbi jurnalistlərin fəaliyyət praktikası // Hərbi bilik, 2013, № 3 (123), s.77-89
2. Qarabağ müharibəsində jurnalistlərin rolu // Hərbi bilik, 2014, № 4 (130), s.80-90
3. Müharibə hüququnun tətbiqi şəraitində jurnalist fəaliyyətinin nəzəri aspektləri // Tarix və onun problemləri, № 2, Bakı: BDU nəşriyyatı, 2015, s.255-261
4. Müharibə jurnalistikasında obyektivliyin qorunması və psixoloji təsir məsələləri // Hərbi bilik, 2016, № 2 (140), s.94-102
5. I Qarabağ müharibəsində ermənilərin törətdiyi cinayətlər və hərbi işğal rejiminin mahiyyəti // Milli təhlükəsizlik və hərbi elmlər, № 2 (1), 2016, s.103-107
6. Silahlı münaqişələr hüququnun yaranma tarixi və mahiyyəti. "Hərb elminin inkişaf perspektivləri" mövzusunda elmi-praktik konfransın materiallar toplusu / Milli təhlükəsizlik və hərbi elmlər, 2015 № 1(1), s.298-305
7. Silahlı münaqişələr hüququnun yaranma tarixi və mahiyyəti // Hərbi bilik, 2015, № 4 (136), s.70-82
8. Silahlı münaqişələrin işıqlandırılmasında obyektivlik problemləri. "Müstəqillik dövrü Azərbaycan jurnalistikasının aktual problemləri" mövzusunda elmi-praktik konfransın materiallar toplusu / "Jurnalistika" ictimai-siyasi humanitar elmlər seriyası, 2015, № 3, s.118-127
9. Uluslararası İnsancıl Hukuk ve Savaş Ortamında Gazetecilik Faaliyetinin Hukuki Yönleri // Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Kayseri, 2016, № 30 (41) , s. 29-51.
10. Социальные и правовые аспекты журналистики конфликта. Филология и культурология: современные проблемы и перспективы развития: сборник материалов 20-й международной науч.-практ. конф. (г. Махачкала, 15 мая 2016 г.), Махачкала: ООО "Апробация", 2016, с. 61-62
11. Права журналистов в зонах вооруженных конфликтов и документы, регулирующие их действия // Проблемы современной науки и образования / Problems of modern science and education, Иваново: 2016, № 16 (58), с. 74-75

## «Теоретические и практические аспекты деятельности журналистов в зонах вооруженных конфликтов" (На основе материалах азербайджанских, российских и турецких средств массовых информаций, 1991–2011 гг.)»

## РЕЗЮМЕ


Данная диссертационная работа является попыткой объективно оценить журналистскую деятельность в направлении оценки, исследования, с точки зрения научно-теоретических и практических исследований в зонах вооруженных конфликтов.

В рамках регулирования деятельности журналистов в зонах вооруженных конфликтов, необходимо изучать права журналистов, которые были определены Женевским и Гаагским конвенций, Дополнительными Протоколами, а также правовые акты и документы, принятые со стороны других международных организаций и отдельными государствами.

В диссертационной работе также были изучены практика журналистов в зонах конфликтов. А так же даны в хронологической последовательности история, формирования, развитие и основная характеристика журналистской войны. В связи с этим, впервые была объяснена понятие «военная журналистика», проведено сравнение между журналистикой, которая существовала до начала конфликта и с азербайджанской журналистикой в современную эпоху, и различия между понятиями научных, социальных и правовых аспектов «военной журналистики».

Ключевые особенности в армяно-азербайджанской войне журналистской деятельности, проблемы безопасности журналистов, и способы их устранения и роли журналистов в извещении мирового сообщества о нагорно-карабахском конфликте – принципах и объективности стала предметом изучения. Были проанализированы в сравнительном спектре деятельность и важность участия иностранных и местных журналистов извещающих мировому сообществу сущность I Карабахской войны между Арменией и Азербайджаном.

В основе результатов, полученных в диссертации стоит то, что, изучение многих лет опыта и обобщенной подготовки журналистов, работающих в зонах конфликтов, конечно, не охватывает все возможные ситуации и будущие журналисты должны повысить уровень знаний и навыков в этой области.

**"Theoretical and practical aspects of the journalism activity in armed conflict zones (Based on the materials of the Azerbaijan, Russian and Turkish media, 1991-2011)"**

## SUMMARY

This dissertation is one of the attempts in the direction of researching and evaluating the journalism activity in armed conflict zones objectively, scientifically and theoretically and practically. Research of the journalism activity armed conflict zones in terms of multiple aspects is a problem new for the Azerbaijani media and serious in terms of journalist professionalism and analysis.

Saying the regulation of the journalism activity in armed conflict zones it is understood the identification of the activity rights of journalists in Geneva and Haage Conventions, Extra Protocols, legal acts and documents accepted by other international organizations and various states.

In the dissertation also the activity practice of journalists in armed conflict zones. Origin, development and major characteristic of war journalism in modern age were given with historical-chronological sequence. On that score, for the first time in the Azerbaijan journalism the journalism which existed before was compared to the modern conflict journalism, the differences between "military journalism" and "war journalism" were explained from the point of scientific, social and legal view.

Major characteristics of journalist activity in Armenia-Azerbaijan war, safety problems of war journalists and the ways of eliminating them, the role of the journalists in delivering the conflict of Nagorno Karabakh to the global community and the principles of objectivity as well became a subject of the research. The activities of foreign and local journalists in delivering the real essence of the Karabakh war I between Armenia and Azerbaijan were widely studied comparedly, their participation and importance in illuminating the conflict were analysed.

Major conclusion made in the research is that although surely learning and by generalizing teaching the practices of the journalists working in the armed conflict zones for long years do not cover all the situations, future journalists need to increase their knowledge and skills on abovementioned field.

Kağız formatı: 60x84  1/16
Sifariş N 178;Tiraj: 100
«Ecoprint» nəşriyyatının mətbəəsində çap olunmuşdur,

Bakı, Mətbuat pr., 529 məh.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГАШГАЙ ЗИЯДДИН оглы РАМАЗАНОВ**

# ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ АСПЕКТЫ ДЕЯТЕЛЬНОСТИ ЖУРНАЛИСТОВ В ЗОНАХ ВООРУЖЕННЫХ КОНФЛИКТОВ" (НА ОСНОВЕ МАТЕРИАЛАХ АЗЕРБАЙДЖАНСКИХ, РОССИЙСКИХ И ТУРЕЦКИХ СРЕДСТВ МАССОВЫХ ИНФОРМАЦИЙ, 1991–2011 гг.)

**5720.01 – Журналистика**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**Б а к у  -  2018**